# DÜNYA

№ 18

MAY-İYUN 2017



Xəzər Universiteti
Dünya Məktəbi
Aylıq dərgi




Təhsil hər bir dövlətin, ölkənin, cəmiyyətin həyatının,
fəaliyyətinin mühüm bir sahəsidir.
Cəmiyyət təhsilsiz inkişaf edə bilməz.

Heydər Əliyev

# BU NÖMRƏDƏ


| | |
|---|---|
| 6-8 | Məktəb xəbərləri |
| 9- 13 | “Бессмертный полк” |
| 14-17 | Xeyriyyə yarmarkası |
| 18-19 | Məktəb xəbərləri |
| 20-25 | “İnciçiçəyi” filminin təqdimatı |
| 26-27 | “İkimizdən birimiz” romansının təqdimat mərasimi |
| 28-33 | Son zəng |
| 34 – 41 | Təqvim |
| 42-43 | Məktəb xəbərləri |
| 44 | Выпускной в начальной школе |
| 45 | İdman-press |
| 46-49 | IB news |
| 50-55 | Məktəb xəbərləri |
| 56 | Bağça və məktəbəqədər hazırlığın saytı |
| 57–63 | KİÇİK DÜNYAMIZ |



9-13


14-17


20-25


26-27


28-33


50-51


58-61


TƏSİSÇİ: XƏZƏR UNİVERSİTETİ
DÜNYA MƏKTƏBİ




JURNALIN ÜZ QABIĞINDA
TOĞRUL ƏHMƏDLİ
1-ci SİNİF


Baş redaktor NAİLƏXANIM İSAYEVA

Baş redaktor müavini AFAQ QƏMBƏROVA

Rəssam MİR RAFİQ ƏBDÜLRƏHİMOV

Dizayner ÜLKƏR KƏRİMOVA

Fotoqraf NURANƏ HƏSƏNOVA, NİGAR FƏRMANOVA, HÜSEYN QƏHRƏMANLI

Redaksiya heyəti MƏRUFƏ MƏDƏTLİ, LEYLA CƏBRAYILOVA, RƏNA HƏSƏNOVA

# GƏLİN DƏYİŞƏN VƏ İNKİŞAF EDƏN DÜNYAYA QOVUŞAQ!

## SİZ DƏ BİZİMLƏ TEZ VƏ HƏVƏSLƏ DİLLƏRİ ÖYRƏNİN.

**DÜNYA TƏHSİL MƏRKƏZİ SİZƏ TƏKLİF EDİR**

ABİTURİYENT HAZIRLIĞI (IX, X, XI)

İBTİDAİ VƏ YUXARI SİNİF ŞAGİRDLƏRİNƏ

FƏNLƏR ÜZRƏ DƏSTƏK

**MƏNTİQ**

**IELTS**

**SAT**

BEYNƏLXALQ TƏLİM STANDARTLARINA ƏSASLANAN DİL KURSLARI

- MƏKTƏBLİLƏR ÜÇÜN BEYNƏLXALQ TƏDRİS PROQRAMLARINA HAZIRLIQ (İBTİDAİ, ORTA MƏKTƏB VƏ DİPLOM PROQRAMLARI ÜZRƏ)
- MƏKTƏBƏQƏDƏR KEYFİYYƏTLİ TƏHSİL



Ünvan:
Əcəmi Naxçıvani 9.
http:// dunyaschool.az
E-mail:info@dunyaschool.az
Tel : (+994 12) 563 59 40 /47/48
Mob: (+994 70) 844 08 88

# DÜNYA MƏKTƏBİNİN SAYTI




XƏZƏR UNİVERSİTETİ




BEYNƏLXALQ BAKALAVR-IB PROQRAMI



DÜNYA BAĞÇASI VƏ MƏKTƏBQƏDƏR HAZIRLIQ



# www.dunyaschool.az

İSTƏK LİSEYİ,
AVROPA AZƏRBAYCAN MƏKTƏBİ,
TÜRKİYƏ DƏYANƏT VƏQFİ BAKI TÜRK LİSEYİ
DÜNYA MƏKTƏBİ

ÜMUMMİLLİ LİDER
HEYDƏR ƏLİYEVİN
ANADAN OLMASININ
94 –CÜ İL DÖNÜMÜNƏ
HƏSR OLUNMUŞ



# MƏKTƏBLƏRARASI ŞAHMAT TURNİRİ

10 MAY 2017







10 may 2017-ci il tarixində Dünya Məktəbində Ümummilli lider Heydər Əliyevin anadan olmasının 94 –cü il dönümünə həsr olunmuş məktəblərarası şahmat turniri keçirildi.Şagirdlərin şahmat strategiyasından istifadə edərək dərslərindəki irəliləyişi və məntiqi düşüncələrinin inkişaf etdirilməsini nzəzər alsaq bu , onlar üçün müsbət bir haldır.Turnirdə İstək liseyi, Avropa Azərbaycan  Məktəbi, Türkiyə Dəyanət Vəqfi  Bakı Türk Liseyi  və Dünya Məktəbinin komandaları iştirak etdilər. Qaliblər diplom və sertifikatlarla təltif olundu. Bu cür turnirlərin keçirilməsi məktəblilər arasında dostluq münasibətlərinin inkişaf etdirilməsi baxımından təqdirə layiq hal kimi qeyd olunur.

İSTƏK LİSEYİ






## TÜRKİYƏ DƏYANƏT VƏQFİ  BAKI TÜRK LİSEYİ

...ŞAGİRDLƏRİN ŞAHMAT STRATEGİYASINDAN
İSTİFADƏ EDƏRƏK  DƏRSLƏRİNDƏKİ İRƏLİLƏYİŞİ
VƏ MƏNTİQİ DÜŞÜNCƏLƏRİNİN
İNKİŞAF ETDİRİLMƏSİNİ NƏZƏRƏ ALSAQ,
BU,  ONLAR ÜÇÜN MÜSBƏT BİR HALDIR...



## AVROPA AZƏRBAYCAN MƏKTƏBİ




TƏHSİL HƏR BİR DÖVLƏTİN, ÖLKƏNİN, CƏMİYYƏTİN HƏYATININ, FƏALİYYƏTİNİN MÜHÜM BİR SAHƏSİDİR. CƏMİYYƏT TƏHSİLSIZ İNKİŞAF EDƏ BİLMƏZ.

**ULU ÖNDƏR HEYDƏR ƏLİYEV**

"HƏR BİR XALQIN MİLLİLİYİNİ, MƏNƏVİ DƏYƏRLƏRİNİ YAŞADAN, İNKİŞAF ETDİRƏN ONUN DİLİDİR."






**Ümummilli liderimiz Heydər Əliyevin anadan olmasından 94 il keçdi.**

**Dərsdə xalqımızın azadlığı, ölkəmizin müstəqilliyi yolunda müstəsna xidmətləri olan bu böyük insanın, dahi şəxsiyyətin həyat və fəaliyyətinə həsr olunmuş müzakirələr aparıldı.**

**Şagirdlərə Heydər Əliyev haqqında, onun həyatı, fəaliyyəti barədə geniş məlumat verildi.**

**Şagirdlər Heydər Əliyevə həsr olunmuş qrup işlərini təqdim etdilər.**



бессмертный
полк

# В строю победителей во все времена!










Уже 72 года прошло со дня великой победы – дня, который поставил точку в одной из самых кровопролитных войн в истории человечества. Накануне этого знаменательного дня в 3 классе прошел урок памяти. Прадедушки многих наших учеников были свидетелями и участниками тех страшных событий. Сейчас, спустя годы, когда многих ветеранов уже нет в живых, слава об их подвигах не умерла. Она передается из поколения в поколение – от сыновей и дочерей к внукам, от внуков – к правнукам. Каждая семья гордится своими героями. На уроке учащиеся школы вместе со своими родителями, бабушками и дедушками вспоминали об их подвигах, рассказывали истории их жизни. Герои нашей страны мужественно сражались на полях Великой Отечественной войны, и память о них живет в сердцах потомков!

**В 2012 году была создана Народная летопись «Бессмертного полка»**





Насиб Давуд
Правнук,
3 класс



**Я пишу об отце.**
**Те, кто помнит отца,**
**пусть расскажут мне чистую правду.**
**Всё хочу я узнать про него до конца,**
**пусть меня упрекнут, коль не прав я…**
**Светит в доме отцовский портрет,**
**я делю с ним земные заботы,**
**как с живым, говорю: это да, это нет.**
**Довоенное желтое фото…**
**Отдал всё мой отец**
**на войне, наяву,**
**жизнь свою я ему возвращаю.**
**Он живёт потому, что сейчас я живу**
**и ему, одному, посвящаю**
**все стихи –**
**их живому ему принесу**
**не венком,**
**а заздравным букетом.**
**Если б не было жгучей тоски по отцу,**
**я, наверно, не стал бы поэтом.**

**Мой прадедушка,**
**Насибов Меджид Али оглы, родился в 1900г. В Газахском районе Азербайджанской ССР.**
**6 февраля 1942г добровольцем ушел на фронт, воевал в составе 402-й стрелковой дивизии.**
**В феврале 1943г пропал без вести.**
**Мой дедушка, поэт Давуд Насиб, большую часть своего творчества посвятил своему безвременно ушедшему отцу.**





**Мой прадедушка,**
**Рзаев Миралескер, родился**
**в 1902 г. в Зангелане.**
**В марте 1942 г. ушел на фронт.**
**В 1943г. был тяжело ранен,**
**но после выздоровления**
**вернулся на фронт.**
**В августе 1944г. во время одного из**
**боёв героически погиб.**
**Он отдал жизнь за свою Родину.**

Правнук,
Рзаев Айдын
3 класс

Мой прадедушка,
Рамазанов Халил Мамед Гусейн оглы, был участником Великой Отечественной войны. Он родился в 1913г. С 1941 по 1945гг. состоял на службе в советской армии. Был ранен в ногу, дошел до Германии. Дважды был награждён орденом Славы.

Правнучка,
Агакишиева Марьям,
3 класс



Правнучка,
Байрамова Дениз,
3 класс

Правнук,
Мамедов Максуд,
3 класс



**Мой прадедушка,**
**Мамедов Ильяс Исмаил оглу, родился 16 октября 1900г. в городе Кировобад.**
**22 марта 1942г. отправился на фронт.**
**Он был военным доктором.**
**Вернулся с фронта в августе 1945г.**
**У моего прадедушки были медали «За боевые заслуги», «За победу над Германией».**

**Мой прадедушка,**
**Аббасов Мазаир, был военным летчиком, участником Великой Отечественной войны. Он родился в 1918г. С первых дней войны совершал боевые вылеты, сражался на Кавказском, Севастопольском и Одесском фронтах. Во время выполнения боевого задания был тяжело ранен. После войны стал доктором исторических наук, много своих трудов посвятил участникам той страшной войны, долгие годы возглавлял совет ветеранов Сабаильского района города Баку.**



Правнучка,
Абдуллазаде Хабиба
3 класс



**Мой прадедушка,**
**Абдуллаев Ибрагим Аллахверди оглы, родился в 1902г. на западе Азербайджана в селе Сарал. Он участвовал в обороне Крыма, был ранен, несколько дней оставался под землёй, был вынужден пить кровавую воду из луж, чтобы не умереть от жажды. После ранения был госпитализирован, лишился нескольких фаланг левой руки. Стал инвалидом Великой Отечественной войны 1-й группы, получил орден «За отвагу». Он прожил долгую жизнь, дожил до 102-х лет, повидал 68 внуков, 141-го правнука и 12 праправнуков. Моего отца назвали в честь него, его имя живет среди нас. в моём папе. Я горжусь своим прадедушкой!**

**Мой прадедушка,**
**Гаджиев Агамуса, с первого дня Великой Отечественной войны добровольцем ушел на фронт.**
**Однажды, с группой разведки оказался в окружении немцев.**
**В ходе боя смог выйти из окружения, за что был награжден орденом**
**«За мужество и отвагу».**

Правнучка,
Бабаева Мялякханым,
3 класс







# ÜMİD GÖZLƏYƏN GÖZLƏRƏ DOĞRU





**Toplanan vəsait**
**Leykoz xəstəliyindən əziyyət çəkən**
**12 yaşlı Cahangir Qurbanovun**
**müalicəsinə sərf olundu...**







# XEYRİYYƏ YARMARKASI



12 may 2017







Yardımlaşmaq bacarığını məktəblilərə aşılamaq üçün məktəbimiz mütamadi xeyriyyə aksiyaları və tədbirlər keçirir. Məktəblilərimiz artıq bilirlər ki, insan insanın dostu, yoldaşı və qardaşıdır. Xeyirxahlıq isə insanlar arasındakı münasibətlərdə təzahür edir, təmənnasız, heç bir əvəz ummadan edilən yaxşılıq növü, insana zövq verən, qəlbini rahatladan gözəl bir hissdir!

Dünya məktəbinin kitabxanası da bu xeyriyyə tədbirinə həmişə sıx əlaqədə olduğu nəşriyyatlarla birgə qatıldı. Belə ki, biz məktəbimizdə hər il təşkil olunan kitab yarmarkasını xeyriyyə aksiyamızla eyni günə təyin etmək qərarına gəldik. Kitabların öz qiymətindən əlavə olaraq əldə edilən gəlirlə kiçik dostumuza biz də yardım edə bilək deyə! Leykoz xəstəliyi ilə mübarizə aparan Qurbanov Cahangir Şair oğluna sümük iliyinin köçürülməsi üçün lazım olan vəsaitin toplanmasında kitabxana əməkdaşlarının da yardımı olmasını istədik.

**DÜNYA MƏKTƏBİNİN ŞAGİRDLƏRƏ AŞILADIĞI ƏN GÖZƏL İNSANİ KEYFİYYƏTLƏRDƏN BİRİ DƏ XEYİRXAHLIQDIR. ÇÜNKİ TANRI DƏRGAHINA APARAN YOL İNSANLARIN ETDİYİ YAXŞILIQ KÖRPÜLƏRİNDƏN KEÇİR.**





**"Cahangir üçün mütaliə et"** deyən məktəblilər kitab yarmarkasında fəal iştirak etdilər. Kitabların satışından başqa məktəblilər tərəfindən çəkilən rəsmlər, əl işləri, Xəzər Universitetinin Təhsil fakültəsinin tələbələri tərəfindən hazırlanan şirin məhsullar da xeyriyyə məqsədilə satıldı. Konsert salonunda isə məktəblilər tərəfindən maraqlı rəqs, mahnı nömrələri ifa olundu.

Tədbirdə Leykemiya ilə mübarizə İctimai Birliyinin sədri Mehriban xanım iştirak etdi.

Kiçik qəlblərində böyük mərhəmət yetişdirən balaca fidanlarımıza Cahangirə göstərdikləri yardım üçün təşəkkür edirik!

*Mədinə Karahan*
*Kitabxana rəhbəri*





MÜXTƏLİF NƏŞİRİYYATLARA MƏXSUS ÇAP MƏHSULLARININ SATIŞI



ŞAGİRDLƏRİN ƏL İŞLƏRİ VƏ RƏSMLƏRİNDƏN İBARƏT SATIŞ-SƏRGİ



ŞAGİRDLƏRİN İFASINDA RƏNGARƏNG MUSİQİLƏR









# SAKİT ! İMTAHAN GEDİR...





# ELMİ-METODİKİ MƏCLİS

22 iyun 2017-ci il tarixdə Dünya məktəbində Elmi-metodiki Məclisin son toplantısı keçirildi. Toplantıda Dünya məktəbinin illik fəaliyyəti müzakirə edildi. Məktəbin direktoru Mərufə Mədətli iclası açaraq, məktəb heyətini 2016-2017-ci tədris ilinin uğurla başa çatması münasibətilə təbrik etdi və hər zaman təhsilin keyfiyyətinin yüksəlməsinə öz töhfəsini verən müəllimlərə təşəkkür etdi.

Monitorinq və qiymətləndirmə şöbəsinin əməkdaşları tərəfindən şagird və məzunların keyfiyyət göstəriciləri barədə ətraflı statistik məlumat verildi. Yeni dərs ilinin strateji hədəfi müəyyən edildi: "Tədrisin keyfiyyətini təkmilləşdirmək və təhsilin keyfiyyətini yüksəltmək". Müəyyən edilmiş strateji istiqamət məktəbin fəlsəfəsinə xidmət edir və insan resurslarının müasirləşdirilməsini, innovativ təlim metodlarını təbliğ edən, təhsilin məzmununun səmərəli mənimsənilməsini təmin edən səriştəli müəllimlərin peşəkarlığının yüksəldilməsi, şagird nailiyyətlərinin qiymətləndirilməsi üzrə yeni kriteriyaların müəyyən edilməsini və şagirdlərin istedadının aşkar edilməsi və inkişafı istiqamətində müəyyən tədbirlər nəzərdə tutur. İclasda qeyd olundu ki, strateji istiqamət məktəb fəaliyyətinin inkişaf planında öz əksini tapmışdır. Strategiyanın uğurla həyata keçirilməsinin əsas şərtləri onun məqsəd və məzmunu haqqında daha aydın təsəvvürün yaradılması və reallaşmasını təmin edən effektiv icra mexanizmini formalaşdırmaqdır.





Məktəbin direktoru bildirdi ki, Dünya məktəbində tərəqqi, bilik və bacarıqların müntəzəm yenilənməsinə xüsusi tələb var. Bu isə səriştənin inkişafına tələbatı artırır. Şagirdlərin savadlı və səriştəli şəxs kimi formalaşmasına müəllimin təsiri müəllimin akademik bacarıqlarından, peşəkarlıq səviyyəsindən çox asılıdır.

Ona görə də 2017-2018-ci tədris ilində Dünya məktəbində tədrisdən ayrılmadan peşəkarlıq səviyyəsinin artırılması üzrə innovativ modellər tətbiq ediləcək.

Müəllimlər tərəfindən hədəfin uğurla həyata keçirilməsi yolunda bir sıra maraqlı təkliflər və ideyalar irəli sürüldü.

İclasın sonunda müəllimlər Ramazan bayramı münasibətilə təbrik edildi və bu müqəddəs peşə sahiblərinin ruhuna, düşüncəsinə Ramazan ayı müqəddəsliyinin hopması arzulandı.











DÜNYA MƏKTƏBİ MEDİA MƏRKƏZİ

TƏQDİM EDİR

YENİ BƏDİİ-SƏNƏDLİ FİLM

# "İNCİÇİÇƏYİ"

LAYİHƏNİN MÜƏLLİFİ

PROFESSOR HAMLET İSAXANLI

FİLM

NAİLƏXANIM İSAYEVANIN

PROFESSOR

HAMLET İSAXANLININ

"İNCİÇİÇƏYİ" ŞEİRİNƏ BƏSTƏLƏDİYİ

MAHNI ƏSASINDA YARADILMIŞDIR.















FİLM

NAİLƏXANIM İSAYEVANIN

HƏYAT VƏ YARADICILIĞINDAN

BƏHS EDİR...





DÜNYA MƏKTƏBİNİN "İNCİÇİÇƏYİ" KONFRANS ZALI HƏMİN GÜN HƏZİN, GÖZƏL İNCİÇİÇƏYİ ƏTİRİNƏ BÜRÜNMÜŞDÜ...

BİR AZ DA KÖVRƏK DUYĞULARA BƏLƏNMİŞDİ...

DÜNYA MƏKTƏBİNİN TƏSİSÇİSİ, DÜNYA DƏRGİSİNİN BAŞ REDAKTORU NAİLƏ XANIMIN YARADICILIĞININ İŞIĞINA TOPLAŞANLAR SƏMİMİ, SEVİNC DOLU, BİR AZ DA KÖVRƏK HİSSLƏR YAŞAYIRDILAR...

ŞƏHƏRİMİZİN ZİYALILARI, TƏHSİL İŞÇİLƏRİ, SƏNƏTÇİLƏRİ ORADA TOPLAŞMIŞDILAR...

YARADICILIQ GECƏSİ PROF. HAMLET İSAXANLININ ŞEİRLƏRİ VƏ NAİLƏ XANIMIN O ŞEİRLƏRƏ BƏSTƏLƏDİYİ MAHNILARLA RÖVNƏQLƏNDİ...

## NAİLƏXANIM İSAYEVA

# İNCİÇİÇƏYİ

## YARADICILIQ GECƏSİ

















BİZ BÖYÜK AMALLARA, ARZULARA, YARADICILIĞA, SƏNƏTƏ, SƏNƏTKARLIĞA HƏSR EDİLƏN BİR ÖMRÜN İLLƏRİNƏ SƏYAHƏT ETMƏK İSTƏDİK...

BİZ O ÖMRÜN İLLƏRİNİ VƏRƏQLƏMƏK, VƏRƏQLƏDİYİMİZ HƏR GÜNÜN, AYIN, İLİN SEHRİNƏ VARMAQ İSTƏDİK...

BİZ O VƏRƏQLƏRDƏ XEYİRXAHLIĞIN, ƏZMKARLIĞIN, GÜCLÜ İRADƏNİN İZİNƏ DÜŞÜB ÖYRƏNMƏK İSTƏDİK...





BİZ BUNLARI İSTƏRKƏN, BİR İNCİÇİÇƏYİ ƏFSANƏSİ YARANDI...

HƏZİN, İNCƏ, KÖVRƏK İNCİÇİÇƏYİ...




















BİZ O VƏRƏQLƏRDƏ XEYİRXAHLIĞIN, ƏZMKARLIĞIN, GÜCLÜ İRADƏNİN İZİNƏ DÜŞÜB ÖYRƏNMƏK İSTƏDİK...

BİZ O İZİN CIĞIRIYLA SEVGİNİN – İNSANLIĞA, İNSANLARA, HƏYATA, DÜNYAYA OLAN SEVGİNİN ALƏMİNƏ DÜŞÜB O SEVİNCƏ ŞƏRİK OLMAQ İSTƏDİK...

BİZ BUNLARI İSTƏR İKƏN...



**AYGÜN**:

“ELƏ BİLİRDİK Kİ, ANAMIZI TƏKCƏ BİZ SEVİRİK.
ÇÜNKİ ANAMIZDAN BİR DƏNƏDİR.
LAKİN BU GÜN GÖRDÜK Kİ, ONU HAMI SEVİR.
ANACAN, ÇOX, ÇOX, ÇOX YAŞA!”













## BƏSTƏKAR

# SEVDA RƏHİMOVA



**Bəstəkar Arif Məlikovun tələbəsi, XƏZƏR Universiteti DÜNYA Məktəbinin müəllimi Sevda Rəhimovanın yaradıcılıq gecəsi keçirilib.**

**professor Arif Məlikov çıxış edərək tələbəsini təbrik edib, ona uğurlar arzulayıb:** "Əsl musiqi insanın beynində, ürəyində həmişə yaşamalıdır. Əgər bu prinsiplə yaşayırsa, həyatının hər hissəsini düz quracaq. Ümumiyyətlə, Baki Musiqi Akademiyası Azərbaycan xalqı qarşısında çox böyük işlər görüb. Üzeyir bəydən başlayaraq həmin yol, cizgi bu gün də özünü aparır".

Eyni zamanda bəstəkar Arif Məlikov elmin, sənətin, mədəniyyətin inkişafı üçün yaratdığı şəraitə və belə tədbirlərin keçirilməsində aparıcı roluna görə XƏZƏR Universitetinin fəaliyyətini yüksək dəyərləndirərək, universitet rəhbəri prof. Hamlet İsaxanlıya təşəkkürünü bildirdi.

"Mən bütün ifaçılara, bəstəkara və dinləyicilərə təşəkkür edir, çox sağ ol deyirəm. Belə görüşlər çox olmalıdır. Heç vaxt qorxu yoxdur ki, Azərbaycan musiqisi zəifləyə bilər. Çünki zəngin musiqi ənənələrimiz var. Lakin məndə həmişə bəstəkarlıq məktəbi ilə bağlı bir qorxu hiss olub. Belə ki, saz sənəti, muğam ifaçılığı həmişə olacaq amma bəstəkarlıq məktəbi və vokal məktəbi sanki geniş kütlə üçün deyil. Bu sahədə qeyri-adi, istedadlı bəstəkarlarımız olub və bu gün də var, həmişə olacaq. Bu cür sənətçilərin qarşısında insan həm heyrətə düşür, həm də bir qədər təşviş keçirir ki, sonra nə olacaq? Bəstəkarlar yaradıcı insanlardır. Böyük əsərlər olmasa, böyük əsərlərin də ifaçıları olmaz.

...SEVDA XANIM MƏNiM POPULYAR
"iKiMiZDƏN BiRiMiZ"
ŞEiRiMƏ ƏSƏR BƏSTƏLƏYiB...

Sevda xanımı təbrik edir, uğurlar arzulayıram.

**prof. Hamlet İsaxanlı**





Professor
Hamlet İsaxanlının
“İKİMİZDƏN BİRİMİZ”
adlı şeirinə
Xəzər Universiteti
Dünya Məktəbinin
müəllimi,
bəstəkar
Sevda Rəhimovanın
bəstələdiyi romansın
Xəzər Universitetinin
Kamera orkestrinin
müşayiəti ilə
təqdimatı













The graduation ceremony of IBDP students together with the students of national curriculum took place on June 7, 2017 at Dunya IB School hall. The students were very excited as their parents, teachers were in the hall to congratulate them with their best day . The IB students danced “Vals” in the beginning of the ceremony and the other students performed national dance.



The founder of Khazar University and co-founder of Dunya IB School, Hamlet Isakhanli gave a welcome speech congratulating them with the graduation of the school.

The class mentors, parents and some teachers wished the graduates new achievements and make us feel proud.

At the end of ceremony, the graduates welcomed the guests, their fellow students, teachers and school administration expressing their gratitude.

# IB

## DIPLOMA PROGRAMME 6th YEAR GRADUATE CONGRATULATIONS 2016-2017



**İnsan həyatında yollar müxtəlif olduğu kimi, astanalar da müxtəlifdir. Məzunluq da özü bir astanadır.**
**Unudulmaz, kövrək, şaqraq anlar, saatlar, günlərlə dolu olan məktəb illərinin bitdiyi və yeni bir həyatın uğur başlanğıcı – astanası!**
**Arxaya çevriləndə ömrünüzdə, gününüzdə xatirələr yazan müəllimlər!**
**Müəllim ömrünü mənalandıran SİZLƏR!**




**Məktəb divarları arasında, sinif otaqlarının qapıları arxasında düşüb itən gülüşləriniz, sübhün şəfəqlərinə açılan yuxulu gözləriniz, qələm tutmağa çalışan balaca əlləriniz, bir-birinizə umu-küsüləriniz, sevginiz... Daha nələr, daha nələr...**

**Riyazi düsturları, fizika qanunlarını bilməyəndə həyəcanlar, imtahanlardan imtahanlara yüksək ballarla keçidlər, iftixar, özünə güvən dolu hisslər, duyğular dünəndə qaldı...**



# 9-cu BURAXILIŞ
## 2016-2017











# DÜNYA MƏKTƏBİNDƏ SON ZƏNG

















# UŞAQLIĞIN SON GÜNÜ...








**DÜNƏN KÖRPƏ ƏLLƏRİNDƏN TUTARAQ ÖVLADLARINI MƏKTƏBƏ GƏTİRƏN VALİDEYNLƏR BU GÜN YENİYETMƏ GƏNCLƏRİN MƏKTƏBLƏ VİDALAŞMASINI SEYR EDİRLƏR...**

**ƏZİZ VALİDEYNLƏR, BU GÜN SİZİN DƏ GÜNÜNÜZ, BU GECƏ SİZİN DƏ GECƏNİZDİR!**

**KÖVRƏK UŞAQLIĞIMIZDAN ZƏRİF, İNCƏ YAŞ DÖVRÜMÜZƏDƏK GÖZLƏRİ ÖNÜNDƏ BÖYÜYÜB BOYA-BAŞA ÇATDIĞIMIZ MÜƏLLİMLƏRİMİZ BU GECƏMİZDƏ NƏLƏR DÜŞÜNÜRLƏR?!**

**MÜƏLLİMLƏRİN HƏYATA VƏSİQƏ ALAN ŞAGİRDLƏRİNƏ ARZULARI YAZILARA, ÇIXIŞLARA SIĞAN DEYİL...**













# NİGAR RƏFİBƏYLİ
XALQ ŞAİRİ

1913 – 1981

"Çadra" adlı ilk şeiri 1928-ci ildə "Dan ulduzu" jurnalında dərc edilmişdir.

1934-cü ildə nəşr olunmuş ilk "Şerlər" kitabı Azərbaycan qadınlarının yeni həyat quruculuğunda iştirakından bəhs edir.

Gəncə şəhərində anadan olmuşdur.

Bakı Pedaqoji Texnikumunu bitirmişdir .

Moskvada Pedaqoji İnstitutda təhsilini davam etdirmişdir.

Bakı kinostudiyasında ssenari şöbəsində, eyni zamanda fəhlə-gənclər məktəbində, Azərnəşrdə bədii-ədəbiyyat şöbəsində tərcüməçi və redaktor, uşaq gənc nəşrdə bədii ədəbiyyat şöbəsində redaktor vəzifələrində işləmişdir.

1936-cı ildə yazdığı "Dolores İbarruri" şeiri ispan xalqının faşizmə qarşı qəhrəmanlıq mübarizəsinə həsr olunmuşdur. "Cəmilə" şeiri Əlcəzair xalqının milli azadlıq mübarizəsinə həsr olunmuş qüvvətli lirik əsərlərdəndir.

...XİDMƏTLƏRİNƏ GÖRƏ ŞƏRƏF NİŞANI, ORDEN VƏ MEDALLARLA TƏLTİF OLUNMUŞDUR...



Məhsəti Gəncəvinin rübailərini,

Evripidin "İfigeniya",

Frixdrix Şillerin "Məkr və məhəbbət",

Anton Çexovun "Vanya dayı",

"Albalı bağı" dramalarını,

E.L.Voyniçin "Ovod",

O.Qonçarın "Bayraqdarlar" romanlarını, Əlişir Nəvai

Aleksandr Puşkin,

Mixail Lermontov,

Taras Şevçenko,

Ş.Petöfi,

A.Mitskeviç,

A.Sereteli

və başqalarının əsərlərini tərcümə etmişdir.

Əsərləri xarici dillərə tərcümə olunmuşdur.

Ala gözlüm, səndən ayrı gecələr,
Bir il kimi uzun olur neyləyim?
Bağçamızda qızıl güllər hər səhər
Tezdən acır, vaxtsız solur, neyləyim?

Nərgizlərin gözü yaşla dolanda,
Bənövşələr baxıb qəmgin olanda,
Qərənfilin gözü yolda qalanda,
Yasəmən saçını yolur, neyləyim?

Əsən rüzgarın da yoxdur vəfası
Düşmüşdür başına özgə sevdası.
Lalənin cırılıb qəmdən yaxası
Saçları pərişan olur, neyləyim?

Bəlkə tez gələsən, əlac verəsən,
Sünbülün saçını yığıb hörəsən-
Əlvan çiçəkləri özün dərəsən,
Gözləri yollarda qalır, neyləyim?

Çəkir çiçəklərin gözü intizar,
Ayrılıqdan betər dünyada nə var?
Bu bahar axşamı səni bax, Nigar
Həzin-həzin yada salır neyləyim?

*Nigar Rəfibəyli*





# Знаменитый поэт-песенник

*Он забирался в самые дальние уголки, к полярным льдам, к жарким пескам пустыни и всюду слышал свои песни. Их исполняли по радио, на сценах и просто в товарищеском застолье, в семейном кругу. «Течет река Волга», «Пусть всегда будет солнце», «Комсомольцы», «Родина моя», «Песня о тревожной молодости», «Есть такая любовь» - все это давно стало классикой. Есть у Ошанина две особые песни, которые стали гимнами, их исполняли на всемирных фестивалях на разных языках. Это «Гимн демократической молодежи». И «Гимн международного Союза студентов».*

## Лев Иванович Ошанин

1912—1996

**Его стихи поются и без участия композитора, музыка возникает как бы сама по себе при чтении, ею пропитана каждая строка: таковы уж талант Ошанина, его особый дар, пожалованный ему Всевышним...**



Когда Георгия Константиновича Жукова спросили, какие песни военных лет он считает лучшими, великий наш полководец, немного подумав, выделил три песни, в том числе и знаменитые «Дороги».

Эх, дороги...
Пыль да туман,
Холода, тревоги
Да степной бурьян.
Выстрел грянет,
Ворон кружит,
Твой дружок в бурьяне
Неживой лежит...

Эти незабываемые волнующие слова написал поэт Лев Иванович Ошанин, которого называли генералом песни. Столь высокое звание ему присвоили солдаты, благодарный миллионный слушатель и исполнитель. Поэт с молодых лет любил армию и служил ей своим творчеством. Немалая часть его произведений объявлялась приказами как песни полков и соединений. Солдаты, отбивая шаг, охотно исполняли их, потому что они были близки им, просты, трогали душу содержанием, юмором, легким музыкальным ритмом, быстро запоминались.

А как трогательно и сердечно писал Лев Иванович о любви, о дружбе и верности: «В этот вечер в танце карнавала я руки твоей коснулся вдруг. И внезапно искра пробежала в пальцах наших встретившихся рук». Да и вообще все его творчество пронизано любовью, солнечным теплом и светом, широтой души.

**На набережной Волги поэту установлен памятник: возле парапета Лев Иванович с книгой в руках смотрит на реку.**





Фотография из фондов Котельничского краеведческого музея

AN AMERICAN WRITER
OF FICTION AND POETRY
FOR CHILDREN AND ADULTS

# Elizabeth Jane Coatsworth

1893 – 1986



"Only of one thing I am sure:
when I dream I am always ageless"

Elizabeth Jane Coatsworth was an American author of fiction and poetry for children and adults. Her children's novel, The Cat Who Went to Heaven, won the 1931 Newbery Medal. She was born May 31, 1893, to Ida Reid and William T. Coatsworth, a prosperous grain merchant in Buffalo, New York. Coatsworth attended Buffalo Seminary, a private girl's school, and spent summers with her family on the Canadian shore of Lake Erie. She began traveling as a child, vising the Alps and Egypt at age five. Coatsworth graduated from Vassar College in 1915 as Salutatorian. In 1916 she received a Master of Arts from Columbia University. She then traveled to the Orient, riding horseback through the Philippines, exploring Indonesia and China, and sleeping in a Buddhist monastery. These travels would later influence her writing.

In 1929, she married writer Henry Beston, with whom she had two daughters, Margaret and Catherine. They lived at Hingham, Massachusetts, and Chimney Farm, Maine.

Elizabeth Coatsworth died at her home in Nobleboro, Maine, August 31, 1986. Her papers are held in the Kerlan Collection at the University of Minnesota and Bowdoin College, Brunswick, Maine.



Coatsworth began her career publishing her poetry in magazines. Her first book was a poetry collection for adults, Fox Footprints, in 1923. A conversation with her friend, Louise Seaman, who had just founded the first children's book publishing department in the United States at Macmillan, led Coatsworth to write her first children's book, The Cat and the Captain. In 1930 The Cat Who Went to Heaven appeared. The story of an artist who is painting a picture of Buddha for a group of monks, it won the Newbery Medal for "the most distinguished contribution to American literature for children".

Twentieth-Century Children's Writers says "Coatsworth reached her apogee in her nature writing, notablyThe Incredible Tales". These four books were published for adults in the 1950s. They tell the story of the Pedrys, a family living in the forests of northern Maine who may not be entirely human.

Coatsworth had a long career, publishing over 90 books from 1927 to her autobiography and final book in 1976.



**THE CAT AND THE CAPTAIN**
**THE CAT WHO WENT TO**
**THE GOLDEN HORSESHOE**
**SWORD OF THE WILDERNESS**
**ALICE-ALL-BY-HERSELF**
**DANCING TOM**
**YOU SHALL HAVE A CARRIAGE**
**INDIAN MOUND FARM**
**UP HILL AND DOWN: STORIES**
**NIGHT AND THE CAT**
**Dollars for Luck**
**Cat Stories**
**Dog Stories**
**Old Whirlwind: The Story of Davy Crockett**
**Horse Stories, by Kate Barnes and Coatsworth**
**Pika and the Roses**
**Lonely Maria**

**"I SAW THE LOVELY ARCH OF RAINBOW SPAN THE SKY, THE GOLD SUN BURNING AS THE RAIN SWEPT BY."**

*ELIZABETH JANE COATSWORTH*



İyunda Dünya məktəbinin Şagird birliyi və müəllimlərindən ibarət bir qrupla Xızıya - Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi Mikayıl Müşfiqin ata yurduna yola düşdük. Yol boyu davam edən söhbətlərimizin əsas mövzusu da nakam şairimiz, onun bənzərsiz yaradıcılığı və faciəvi həyatı oldu.

Müşfiq möhkəm iradəsi, xalqa sonsuz sevgisi, Vətənə bağlılığı ilə silahlanıb amansız sovet repressiya maşınına mətinliklə sinə gərdi. Ülvi,saf məhəbbəti, yurdumuzun daşını, torpağını, yarpağını, mavi Xəzərini tərənnüm etməkdən yorulmadı, usanmadı...

"Ana"dan yazdı, "Sevgi" dedi, "Yenə o bağ olaydı" pıçıldadı, "Oxu tar" hayqırdı,... Bu gənc varlığı, poeziyası, dünyaya baxışı ilə fədakarcasına sovetlərə meydan oxudu. Və qalib gəldi. Əgər bu gün ölməz misraları səslənirsə, yaddaşlarda yaşayırsa, deməli o da yaşayır...

Ana dedim, ürəyimə yanar odlar saçıldı,
Ana dedim, bir ürpəriş hasil oldu canımda,
Ana dedim, qarşımda bir gözəl səhnə açıldı,
Ana dedim, fəqət onu görməz oldum yanımda.

Xızıya gəlişimiz Müşfiqin doğum gününə və həbs olunduğu tarixə təsadüf edirdi. Taleyin amansız oyununa bax ki, şairin həyatında ən işıqlı və ən qaranlıq günlər də eynidir - iyunun 5-i... Müşfiq həmin gün doğulub, həmin gün də zindana atılıb... 1938-ci il, yanvarın 5-də, saat 11:20-də başlanan "məhkəmə" isə cəmi 20 dəqiqədən sonra bitib. Sovet cəlladları Müşfiqə ölüm hökmü kəsib... Əlbəttə, özləri də anlamırdılar ki, onu yalnız cismani məhv edə bilərdilər...

Ah, mən gündən-günə bu gözəlləşən,
İşıqlı dünyadan necə əl çəkim?
Bu yerlə çarpışan, göylə əlləşən,
Dostdan, aşinadan necə əl çəkim?

1937-ci il noyabrın 2-də isə Müşfiqin həyat yoldaşı Dilbər Axundzadə də həbs edilir... Şairin ilham pərisi, eşq ünvanı, Müşfiqin haqqında dəfələrlə yazdığı "nazlı Dilbər"i məhbəsdə dəhşətli işgəncələrə məruz qalır... Həbsdən isə artıq psixi xəstə olaraq azad edilir...

Ey gözəl Gəncənin gözəl Dilbəri,
Nədir səndəki o mehriban əda?
O gündən bəridir nərdə bulunsam,
Gözümdə sən varsan, könlümdə sevda.

Repressiyanın acı yelləri amansızlıqla şairin ailəsinin və qohumlarının üzərinə əsməyə davam edir. Müşfiqin böyük qardaşı 32 yaşlı Mirzə, bacıları 30 yaşlı Böyükxanım, 29 yaşlı Balacaxanım, 16 yaşlı əmisi oğlu Yunis repressiya olunur. Hesabdar işləyən Mirzə qəfildən yoxa çıxır, nə öldüsü, nə də qaldısından xəbər olmur... Yunis isə, təzə yazmağa başlayan həvəskar şair idi... On bir il şaxtalı Sibir çöllərində sürgün həyatı keçirib xəstə, zəif halda qayıda bilir.

Müşfiqin bacısı - 30 yaşlı Böyükxanımı həbs etmək üçün gələn NKVD-çilər evdə axtarış apararkən bu mətin qadın paltar dəyişmək bəhanəsilə yan otağa keçir, orada olan dolu neft qabını son damlasına kimi üstünə töküb, həyətə çıxır, uca səslə "Müşfiqə canım fəda olsun" deyib özünü yandırır...

Şairin digər bacısı müəllimə Balacaxanımı isə əsasən ermənilərdən ibarət olan yalançı şahidlərin böhtanı əsasında həbs edib uzaq Arxangelskə göndərirlər... Balacaxanım 6 il həbs məhbəsdə qalır... Balacaxanım müəllimə yalnız 1954-cü ildə, Müşfiq bəraət alandan sonra Bakıya qayıda bilir. Bu qadının muzeyin ekspozisiyasında nümayiş etdirilən, əlində Müşfiqin bəraət kağızı ilə çəkdirdiyi fotoşəklinə baxan hər kəsi istər-istəməz göz yaşları boğur... Balacaxanım İsmayılzadə Sovet dövlətinin ona kəsdiyi böyük məbləğdə pul təzminatını almaqdan qəti şəkildə imtina edir... Muzeyin əməkdaşları buradakı hər bir eksponatın tarixindən böyük sevgi ilə danışırlar. Buranın özünəməxsus aurası var...



Müşfiq çox qısa ömür yaşasa da əyilmədi, sınmadı, dediyini inkar etmədi, sabaha inamını, Vətənə sevgisini itirmədi. Olmazın işgəncələrə mərdliklə davam gətirərək həyatı bahasına heç kimin haqqında “danos” yazmadı, heç kimi şərləmədi, heç kimin özünün yolçusu olduğu gedər – gəlməzə göndərilməsinə səbəb olmadı... İncə ruhlu, zərif qəlbli olduğu qədər də, polad kimi mətin, Xızı dağları qədər vüqarlı idi Müşfiqimiz...



Hər kəs bilir həyatın sonu ölümdür,
Ah bu qəmli dəyişmə yaman zülümdür.
Şeirim, bu gülünc oyun bəllidir,
yarın bizi də bəklər.
Səndə öl mənim kimi, fəqət,
Məzarın olsun ürəklər.



Muzeyin xatirə kitabına biz də ürək sözlərimizi yazdıq. Böyük şair, böyük insanın qısa, amma şərəfli ömür yoluna işıq tutduğumuz üçün çox qürurluyduq... Mayası sədaqətdən, düz ilqardan yoğrulmuş əsil azərbaycan ailəsinin, fədakar insanların acı taleyi isə bizi çox duyğulandırmışdı...



Müşfiqin Xızıdakı ev muzeyindən bizim üçün yeni məlumatlar və hüznlü təəsuratlarla qayıtdıq. 109 yaşlı həmişəcavan, nakam şairimiz nə yazıbsa indi də öz zamanındakı kimi eyni maraq eyni, sevgi ilə oxunur. Xalqımız Müşfiqi gənclik, məhəbbət, gözəllik carçısı kimi daim yaşadacaq. Təsadüfi deyil ki, onun şeirləri həmişə gənclər arasında xüsusilə sevilir. Nəsillər dəyişir. Şairin gənc oxucuları da illər sonra yaşa dolur, amma o həmişə xatirələrdə elə 29 yaşlı yaraşıqlı, dəliqanlı, nikbin gənc olaraq qalacaq.



Bu günlərdə 109 yaşı qeyd olunsa da ...
Deyirsən yanında qalacağam mən,
Çox gözəl fikirdir, qal, sənə qurban.
Nə zaman istəsən əziz canımı
Qumral gözlərinlə al, sənə qurban.

*Aləmzər Cabbarova*
*Direktor müavini*







# ВИКТОРИНА

— игра, заключающаяся в ответах на устные или письменные вопросы из различных областей знания.

# СЛОВО ВИКТОРИНА

появилось в 1928-х г. в журнале «Огонёк». Известный советский журналист и писатель Михаил Кольцов так озаглавил подборки, включающие в себя вопросы, шарады, ребусы.

**САМАЯ БОЛЬШАЯ ВИКТОРИНА, СОГЛАСНО КНИГЕ РЕКОРДОВ ГИННЕССА, ПРОШЛА В ГОРОДЕ ГЕНТ (БЕЛЬГИЯ) В 2010 ГОДУ. В НЕЙ ПРИНЯЛО УЧАСТИЕ 2280 ЧЕЛОВЕК.**

## ДЕВИЗ НАШЕГО КЛАССА: «КТО МНОГО ЧИТАЕТ, ТОТ МНОГО ЗНАЕТ».



Самая большая викторина, согласно книге рекордов Гиннесса, прошла в городе Гент (Бельгия) в 2010 году. В ней приняло участие 2280 человек.



Учащимися 4-го «с» класса была проведена викторина в рамках изучения произведения Антуана де Сент-Экзюпери «Маленький принц».

Ребята рассказали об интересных фактах из жизни писателя и приняли участие в конкурсе знатоков произведения. Блиц-опрос, ребусы, кроссворды и тесты – всё это помогло определить команду победителей.



Такие мероприятия помогают нам привить детям любовь к книгам, интерес к чтению. Ведь исследование и познавательность – основная движущая сила в образовании на современном этапе жизни.





# ВЫПУСКНОЙ В НАЧАЛЬНОЙ ШКОЛЕ









## ...KONQRESDƏ 2018 PYEONGCHANG QIŞ OLİMPİYA OYUNLARI, QWANGJU 2019 FINA DÜNYA ÇEMPİONATI MÜZAKİRƏ OLUNDU...

Beynəlxalq İdman Mətbuatı Assosiasiyasının (AİPS) növbəti 80-ci konqresi ilk iş gününü mayın 9-da Koreyanın Seul şəhərində başlayaraq, növbəti iş günlərini 2018 qış olimpiya oyunlarının keçiriləcəyi PyeongChang əyalətində davam etdirdi. Amerika, Avropa, Asiya və Afrika qitələrindən 120 ölkənin idman jurnalistlərinin və Koreya dövlət rəsmilərinin iştirak etdiyi açılış mərasimində 1924-ci ildən fəaliyyət göstərən Beynəlxalq İdman Mətbuatı Assosiasiyası (AİPS) barədə ətraflı danışıldı.





80th
AIPS CONGRESS
SEOUL-PYEONGCHANG
KOREA 2017

Rəsmi açılışdan sonra konqresdə dünya idman jurnalistikasının rolu və bu sahədə irqindən və milliyətindən asılı olmayaraq idman media əməkdaşlarının hüquqlarının qorunması və əngəllərin aradan qaldırılması istiqamətində müzakirələr dinlənildi, bu sahədə çalışan və həyatını itirən jurnalistlər yad edildi.

Konqresin növbəti iş günündə AİPS İcraiyyə Komitəsinə yeni üzvlər seçildi və 2018, 2019 - cu illərdə keçirilməsi nəzərdə tutulan olimpiya oyunlarının - Qwangju 2019 FINA Dünya çempionatı və Dünya Taekvondo Federasiyasının təqdimatları dinlənildi. Sonra jurnalistlər PyeongChang əyalətindəki 2018 Qış Olimpiya Oyunlarına hazırlıq prosesi ilə tanış olaraq, yarış obyektlərini gəzdilər.

***Nərgiz Mahmudzadə***
*Dünya Məktəbinin müəlliməsi,*
*Azərbaycan İdman Jurnalistləri*
*Assosiasiyasının I vitse-prezidenti*



# Graduation Ceremony of the first Grades

DUNYA PYP SCHOOL HELD ITS GRADUATION CEREMONY OF THE FIRST GRADERS. GRADUATES PRESENTED MUSICAL PLAYS, SONGS AND DANCING.

















PARENTS, GUESTS AND STAFF ENJOYED THE STUDENTS' PERFORMANCE. AT THE END OF THE CEREMONY STUDENTS WERE AWARDED WITH THE CERTIFICATES.







# IB








DUNYA SCHOOL PYP STUDENTS HAD AN ASSEMBLY WITHIN THE "SHARING THE PLANET" UNIT. THE CELEBRATION WAS CALLED "SAVE THE EARTH".



IT WAS A GREAT DAY TO SHOWCASE ENVIRONMENTAL EDUCATION, HIGHLIGHT EFFORTS TO GREEN THE SCHOOL AND ENGAGE THE WHOLE STUDENT COMMUNITY IN MAKING A DIFFERENCE. THE TEACHERS WORKED COLLABORATIVELY TO EXPLAIN THE KIDS THE IMPORTANCE OF RESPECTING THE EARTH'S NATURAL RESOURCES.

## Ecology

SAVE THE EARTH
GO GREEN





THE STUDENTS TALKED ABOUT OUR PRECIOUS PLANET AND ALL THE THINGS WE COULD DO TO PRESERVE IT. THEY STRESSED THE IDEA THAT EVERY EFFORT TO HELP SAVE THE EARTH MATTERS AND PARTICIPATION IS IMPORTANT. STUDENT PROJECTS FOCUSED ON CONSERVATION, RECYCLING AND STEWARDSHIP.



THE EARTH IS OUR HOME.
WE PROMISE TO KEEP IT HEALTHY AND BEAUTIFUL.

THE TOPICS VARIED FROM WATER CYCLE TO DIFFERENT ENERGY SOURCES. THE STUDENTS SUGGESTED HOLDING A PETITION TO STOP POLLUTING THE EARTH. THE MESSAGE THEY TRIED TO DELIVERED TO THE AUDIENCE WAS: “THE EARTH IS OUR HOME. WE PROMISE TO KEEP IT HEALTHY AND BEAUTIFUL.” WE WILL BE A DEFENDER OF THE EARTH. UNITED WITH FRIENDS, WE WILL

# SAVE THE EARTH













## Zirə Mədəniyyət Mərkəzi

# EKO-PARK

2016 – 2017 – ci tədris ilimiz uğurla sona çatdı. İl ərzində dərslərimizə, imtahanlarımıza hazırlaşdıq, çalışdıq. Əldə etdikləri uğurlu nəticələrinə görə şagirdlərimizə hədiyyə olaraq gəzinti təşkil etdik. Gəzintimiz Zirə qəsəbəsində yerləşən ECO – PARK mərkəzinə oldu. Bu uşaqların hərtərəfli inkişafı, sağlam gələcəyinin təminatı üçün nəzərdə tutulmuş istirahət mərkəzidir. Bu mərkəzdə yaradılmış xüsusi dərs otaqlarında yay mövzusunda uşaqlarla müzakirələr apardılar.









Əyləncəli şahmat oyunları keçirildi.

Art studioda uşaqlar sərbəst olaraq rəsmlər şəkdilər. Mərkəzdə şagirdlərimizin xüsusi marağını cəlb edən divarda asılmış Azərbaycanın xəritəsi əks olunmuş müzeydəki ən böyük xalça oldu. 3 – cü siniflərin şagirdləri bu xalçanın fonunda xatirə şəkli çəkdirdilər. Uşaqlar yaradılmış sərgidən çox gözəl təəssüratlarla ayrıldılar.

ECO – PARK tərəfindən hədiyyə olaraq verilən gülləri şagirdlərimiz öz əlləri ilə əkdilər və yadigar olaraq evlərinə apardılar.





























DÜNƏN KÖRPƏ ƏLLƏRİ İLƏ
VALİDEYNLƏRİNİN ƏLLƏRİNDƏN TUTUB
1-Cİ SİNFƏ QƏDƏM QOYAN BALACALAR BU GÜN SƏSLƏRİN,
HƏRFLƏRİN, RƏQƏMLƏRİN BAYRAMINI QEYD EDİRLƏR...
ƏLİFBANI BAŞA VURDUQ DEYİRLƏR...





# 1 İYUN
# Uşaqların Beynəlxalq Müdafiəsi Günüdür.





BMT Baş Assambleyasının 1950-ci il iyunun 1-də təşkil etdiyi qadınların beynəlxalq konfransında uşaq hüquqlarının təmin edilməsi ilə bağlı təkliflər səslənib və elə həmin konfransda da iyunun 1-ni uşaqların müdafiəsinə həsr etmək qərara alınıb. Bundan sonra həmin gün uşaqların beynəlxalq müdafiəsi günü kimi

tarixə düşüb.













## Uşaqlar bizim sabahımız, gələcəyimizdir! Uşaqlarımızı qoruyaq!













# XƏZƏR UNIVERSiTETi DÜNYA MƏKTƏBiNDƏ ŞAHMAT SEANSI KEÇiRiLDİ.

XƏZƏR Universiteti DÜNYA Məktəbinin təşkilatçılığı və Azərbaycan İdman Jurnalistləri Assosiasiyasının dəstəyi ilə Azərbaycan Silahlı Qüvvələri Gününə həsr edilmiş Şahmat seansında XƏZƏR Universiteti və DÜNYA Məktəbinin təsisçisi professor Hamlet İsaxanlı, Azərbaycan İdman Jurnalistləri Assosiasiyasının prezidenti Eldar İsmayılov, Bakı Şəhər Gənclər və İdman İdarəsinin baş məsləhətçisi Salman Əbdülov, Azərbaycan Şahmat Federasiyasının baş katibi İbrahim Məmmədov və digər məsul nümayəndələr iştirak edirdilər.



















Seansda DÜNYA Məktəbi və Bakının digər məktəblərinin şagirdləri, şahmat məktəblərinin yetirmələri, həvəskarlar iştirak edirdilər. Seansın başlanğıcında Xəzər Universiteti Direktorlar və Qəyumlar Şurasının sədri, professor Hamlet İsaxanlının bütün taxtalarda ağ fiqurlarla etdiyi ilk gediş şagirdləri mübarizəyə daha da ruhlandırdı.

DÜNYA Məktəbinin İdman Kompleksində baş tutan tədbirdə seans idman ictimaiyyətinin nümayəndələri Beynəlxalq qrossmeyster, Əməkdar Məşqçi Azər Mirzoyev, FİDE ustası Elşad Rzayev və DÜNYA Məktəbinin Şahmat müəllimləsi Şəlalə Hüseynova tərəfindən verildi. Tədbir təşkilatçıları seansın yüksək səviyyədə aparılmasına böyük səylə çalışdılar. Xüsusi əzmkarlıq nümayiş etdirən iştirakçılar bütün bacarıqları ilə mübarizə aparırdılar. Bu da seansın maraqlı keçməsinə şərait yaratdı.

Tədbirin sonunda fərqlənən şahmatçılar diplomlarla mükafatlandırıldılar.









# BAĞÇA VƏ MƏKTƏBƏQƏDƏR HAZIRLIĞIN SAYTI




bagca.dunyaschool.az





## 28 May

Azərbaycan xalqının XX əsr tarixində ən əlamətdar,
ən fəxarətli, uğurlu hadisələrlə,
gözəl bayramlarla zəngin bir aydır.
Bu gözəl may günlərinin biri-
respublikamızın hər yerində
təntənəli şəkildə qeyd olunan,
öyrənilən, yenidən yaşanan
və ölməzlik qazanan
28 May Respublika Günü -
Azərbaycan Xalq Cümhuriyyətinin
əsasının qoyulduğu gündür.



Xalqımızın azadlıq və müstəqillik mübarizəsi tarixinə qızıl hərflərlə həkk olunmuş 1918-ci il mayın 28-i hər bir Azərbaycan vətəndaşının milli qürur hissi duyduğu, arzularının çiçək açdığı bir gündür. Əsrlərlə azadlıq və müstəqillik arzusu ilə yaşayan Azərbaycan xalqı ötən əsrin əvvəllərində bu işıqlı may günündə arzusuna qovuşdu. Şərqdə ilk dəfə azad, demokratik, dünyəvi dəyərlərə söykənən müstəqil bir respublikanın yarandığı dünyaya bəyan edildi. Xalqımız 1918-ci il mayın 28-də çar Rusiyasının bir əsrdən artıq davam edən müstəmləkə əsarətindən azad oldu, Şərqin ilk demokratik respublikasının təməlini qoydu. Tariximizin bu qızıl səhifəsi ilə bağlı DÜNYA bağçası, məktəbəqədər hazırlıq bölməsində uşaqlara məlumat verilir və hər il bu bayram xüsusi qeyd olunur.

**Программа Международный бакалавриат была разработана в Швейцарии в 1968 году и с тех пор получила широкое распространение в мире.**

**Это универсальная школьная программа с общим учебным планом, которая позволяет считать образование, полученное в другой стране, эквивалентным национальному.**

# İB



**Она предполагает 4 программы для обучения детей**

**Успешные выпускники программ İB высоко ценятся ведущими университетами по всему миру.**

**İB больше, чем просто образовательные программы и сертификаты. В нашей работе мы руководствуемся миссией İB – через образование сделать наш мир лучше.**



**Доброжелательность**

**Любознательность**

**Рискованность**

**Коммуникация**

**Исследование**

**Кооперация**

**УРОК- ПРЕЗЕНТАЦИЯ, НА КОТОРОМ БЫЛИ РЕАЛИЗОВАНЫ МНОГИЕ ПРОФИЛИ :**



**в школе “Дунья” была внедрена программа İB и в азербайджанском, и в русском секторах, начиная с групп дошкольного образования, как и предусматривается данной программой.**

**Целью Международного Бакалавриата является воспитание критически мыслящих, знающих, заботливых молодых людей, способных и желающих изменять наш мир к лучшему, делать его более мирным через межкультурное понимание и уважение людей друг к другу.**





Эти программы побуждают детей и подростков во всём мире активно непрерывно учиться на протяжении всей своей жизни.



В течение года учителя работали по многопрофильным темам PYP, старались привить детям мыслительность, коммуникабельность, доброжелательность, принципиальность, сбалансированность...

**Маленькие учёные проявили большую находчивость, интерес к научным исследованиям. Ведь они сами экспериментировали в научных опытах!**





Сколько задора и блеска
было в их счастливых глазках,
сколько тайн обычной воды
они открыли для себя
на этом уроке!



**16 мая 2017**












**Kövrək uşaqlıq illərinə vida deyən balacalar qədəmlərini birinci sinfə qoyurlar...**

**Məktəbəqədər təhsil illəri onların uşaqlıq yaddaşında gözəl xatirələr yazdı...**

**Peşəkar tərbiyəçilərin maraqlı təlim və məşğələlərində, rəngli boyalar, kağızlar, bir-birindən maraqlı oyunlar aləmində böyüyən DÜNYA bağçasının balaca sakinləri bu il DÜNYA Məktəbinə kövrək qədəmlərini qoyacaqlar...**



**Uğurla qoyacaqlar, inamla irəliləyəcəklər...**

**Çünki bağçanın məktəbəqədər hazırlığı onları bilikləri mükəmməl öyrənməyə hazırlayıb!**

**Uğur olsun!**













www.dunyaschool.edu.az

XƏZƏR UNİVERSİTETİ
DÜNYA MƏKTƏBİ
2017-2018

BEYNƏLXALQ
BAKALAVR
TƏŞKİLATI

# XƏZƏR UNİVERSİTETİ DÜNYA MƏKTƏBİNDƏ 2017-2018-Cİ TƏDRİS İLİ ÜÇÜN ŞAGİRD QƏBULU BAŞLANDI



Məktəbə qəbul müsabiqə yolu ilə həyata keçirilir. Qəbul imtahanında ən yüksək nəticə göstərən şagirdlər təqaüd imkanı qazanırlar.

Azərbaycan və rus bölmələrində ingilis dili ikinci dil kimi tədris olunur.İngilis dilinin tədrisi beynəlxalq standartlara uyğun təşkil olunmuşdur.

VII sinifdən başlayaraq şagirdlərin seçimi ilə fransız, alman və ya çin dili də öyrədilir.

Məktəbdə təcrübəli yerli pedaqoqlar və xaricdən dəvət edilmiş mütəxəssislər çalışırlar. Məktəbdə biliklə yanaşı, tərbiyəyə, sosial fəaliyyətlərə də böyük əhəmiyyət verilir.

AZƏRBAYCAN BÖLMƏSİ
I-XI
RUS BÖLMƏSİ
I-X
İNGILIS BÖLMƏSİ
I-XI
SİNİFLƏRƏ

**Onlayn müraciətlə, zəng etməklə və ya məktəbə gəlməklə qeydiyyatdan keçə bilərsiniz**

Dünya məktəbində Beynəlxalq Bakalavr Təşkilatının (İnternational Baccalaureate Organization – IBO) ibtidai, orta məktəb və diplom proqramları fəaliyyət göstərir.

X sinif şagirdləri tam orta təhsillə yanaşı, Beynəlxalq Bakalavr Təşkilatının Diplom Proqramında təhsil ala bilərlər. Digər məktəblərin şagirdləri də imtahan verməklə Diplom Proqramına qəbul edilirlər. Diplom proqramında təlim ingilis dilindədir, təhsil müddəti iki ildir.

Beynəlxalq Bakalavr Diplomu əldə edən şagirdlər dünyanın tanınmış universitetlərində təhsillərini davam etdirmək imkanı qazanırlar. IB Diplom proqramında təhsil almaq istəyən IX sinif şagirdləri üçün Pre IB, yəni IBDP-yə hazırlıq sinfi təşkil edilir.

## BAĞÇA VƏ MƏKTƏBƏQƏDƏR HAZIRLIĞA ŞAGİRD (4-5, 5-6 yaş) QƏBULU DAVAM EDİR.



Keyfiyyətli təhsil, sağlam yaradıcı mühit şagirdləri öyrənməyə həvəsləndirir. Gündəlik dərs proqramından əlavə, şahmat, kompüter, psixologiya, rəsm,texnologiya,musiqi,rəqs dram, və üzgüçülük dərsləri keçirilir, ən önəmli bacarıq və vərdişlər formalaşır. Təhsil azərbaycan, rus və ingilis dillərində aparılır.

SİZİ GÖZLƏYİRİK!
DÜNYA MƏKTƏBİ SİZİN ARZULARINIZI GERÇƏKLƏŞDİRƏN BİR MƏKTƏB! BİZİ SEÇSƏNİZ, İNANIRIQ Kİ, SƏHV ETMƏZSİNİZ. DÜNYANI DÜNYA MƏKTƏBİNDƏ KƏŞF ETMƏYƏ TƏLƏSİN!

Əcəmi Naxçıvani 9
Tel: (+99412) 563 59 40/47/48
Mob: (+99470) 844 08 88

E-mail: info@dunyaschool.az
URL: www.dunyaschool.edu.az

Sumqayıt.Bakı küçəsi, 44-cü məhəllə
Tel.: (+994 18) 642 30 97
Mob.: (+994 55) 669 96 33